## İŞTİRAK ETDİYİ VƏ SSENARİ MÜƏLLİFİ OLDUĞU FİLMLƏR

### CAVAD XAN FİLM (2009)




Film XIX əsrin əvvəllərində öz oğulları ilə birlikdə vətən uğrunda Sisianovun (Ramiz Novruz) başçılığı altında rus qoşunlarına qarşı mübarizə aparan və mərdliklə həlak olan xanlar xanı, cəsur sərkərdə Cavad xan (Nurəddin Mehdixanlı) haqqındadır.

Filmdəki paltar və qiyafətlər Sankt-Peterburq şəhərindən sifariş edilib gətirilmişdir.Filmdə 130-a qədər aktyor çəkilmişdir.Filmin kütləvi səhnələrində daxili qoşunların əsgərləri də iştirak etmişdir.Film Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanının motivləri əsasında çəkilir. Filmin premyerası Milli kino günündə — 31 iyul 2009-cu ildə Heydər Əliyev adına sarayda keçirilmişdir (qeyd: Milli kino günü 2 avqustdur. 2009-cu ildə bu tarix bazar gününə düşdüyü üçün tədbir 2 gün əvvələ 31 iyula keçirilmişdi).

**Film üzərində işləyənlər**
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Quruluşçu rejissor:** Rövşən Almuradlı
**Quruluşçu operator:** Məhəmməd Məcidi
**Quruluşçu rəssamlar:** Rafiq Nəsirov, Rafiz İsmayılov
**Bəstəkar:** Sərdar Fərəcov
**Geyim üzrə rəssam:** Tahir Tahirov
**Qrim üzrə rəssamlar:** Niqora Əhmədova, Nataliya Müslimova
**Redaktor:** Aydın Qurbanoğlu və başqaları.

### YEDDİ OĞULDAN BİRİ FİLM (2007)

Yeddi oğuldan biri. Ənvər Həsənov (film, 2007): Film xalq artisti, kino aktyoru və rejissor Ənvər Həsənovun həyat və yaradıcılığına həsr edilmişdir. Filmdə aktyorun özü də çıxış edir.

Yeddi oğuldan biri. Ənvər Həsənov (film, 2007): Film əməkdar artist, kino aktyoru və rejissor Ənvər Həsənovun həyat və yaradıcılığına həsr Filmdə "Torpaq dəniz od səma", "Uşaqlığın son gecəsi", "Dəli Kür", "Yeddi oğul istərəm...", "Bizim küçənin oğlanları", "Dədə Qorqud", "Dərviş Parisi partladır", "Arxadan vurulan zərbə", "Babək", "Qanlı zəmi" filmlərindəki kadrlardan istifadə edilmişdir.

**Filmdə iştirak edənlər**
Ramiz Novruz (xalq artisti)
**Sabir Rüstəmxanlı (xalq şairi)**
Rasim Balayev (xalq artisti)
Kənan Məmmədov (kinooperator)
Ənvər Həsənov (əməkdar artist)
Amaliya Pənahova (xalq artisti)
İlham Babayev (Ənvər Həsənovun dostu)
Rafiq Nəsirov (xalq rəssamı)

## QAYIDIŞ FİLM (1988)

Filmdə Lahıc və Şamaxının təbiəti, bu yerlərdə yaşayan insanlar, dağlar qoynunda yerləşən kəndlər haqqında danışılır. Burada deyilir ki, kəndlərdən cavanlar çıxıb şəhərlərə yaşamağa gedirlər, kəndlər tədricən boşalır. Bununla belə kəndlərdə qalıb yaşayanlar da var. Filmdə onlardan da söhbət gedir.

**Film üzərində işləyənlər**
**Rejissor:** Ramiz Axundov
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Operator:** Vaqif Behbudov
**Səs rejissoru:** Rəşad Mustafayev

## UÇUŞ XƏTTİ FİLM (1987)

Film Bakıdakı Yuri Qaqarin adına Mərkəzi Pionerlər sarayının fəaliyyətindən bəhs edir.

**Film üzərində işləyənlər**
**Rejissor:** Miri Rzayev, Xamiz Muradov
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Operator:** Vladimir Konyagin
**Səs operatoru:** Şamil Kərimov




## TALADA EV CİZGİ FİLMİ (1986)

Gizli şəkildə başqasının əməyinin bəhrəsindən istifadə etmək olarmı? Filmin balaca tamaşaçılara ünvanlandığını və uşaqların mənəvi tərbiyəsində əhəmiyyətli rol oynaya biləcəyini nəzərə alsaq, sual heç də ritorik deyil.İki siçanın başına gələn əhvalatdan belə nəticə çıxarmaq olar ki, bir parça halal çörək qeyri-qanuni əldə edilmiş var-dövlətdən şirindir.

**Film üzərində işləyənlər**
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Rejissor:** Hafiz Əkbərov
**Quruluşçu rəssam:** Nazim Məmmədov
**Bəstəkar:** Cəmil Əmirov
**Operator:** Ramiz Ağayev
**Səs operatoru:** Akif Nuriyev və başqaları




## MEŞƏYƏ İNSAN GƏLİR FİLM (1980)

İnsan meşədə görünən kimi, bütün heyvanlar qorxularından əl-ayağa düşürlər. Onlara elə gəlir ki, insan bu dəqiqə meşəni də, heyvanları da məhv edəcək. Amma hər şey onların düşündüklərinin əksinə olur. İnsan nəinki meşədəki ağaclara və heyvanlara qayğı ilə yanaşır, hətta, onları yanğın təhlükəsindən xilas edir. Bunu görən heyvanlar sakitləşirlər. Meşədə həyat öz əvvəlki məcrasına düşür.

**Film üzərində işləyənlər**
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Rejissor:** Hafiz Əkbərov
**Quruluşçu rəssam:** Elçin Axundov
**Operator:** Ramiz Ağayev
**Bəstəkar:** Xəyyam Mirzəzadə
**Səs operatoru:** Akif Nuriyev
**Cizgi rəssamı:** Bəhmən Əliyev, Rauf Dadaşov, Vaqif Məmmədov, Arifə Hatəmi, Yuri Meşşeryakov, Vahid Talıbov, Gülşən Quliyeva, Solmaz Hüseynova
**Rejissor assistenti:** Sima Qurbanova, E.Əliyev

## 1990-CI İLİN ADAMI (1977)

1990-cı ilin adamı filmi rejissor Musa Bağırov tərəfindən 1977-ci ildə çəkilmişdir. Film "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Adından göründüyü kimi, film günləri qabaqlayan, bir beşillikdə iki beşillik planı yerinə yetirən, qəlbi yenilik eşqi ilə döyünən əmək adamlarından birinə-ÜİLKGİ-nin 50 illiyi adına Mingəçevir toxuculuq kombinatının usta köməkçisi, eyni zamanda 112 dəzgaha xidmət edən Yaqub Rüstəmova, onun qazandığı nailiyyətlərə, şərəfli əmək yoluna həsr olunmuşdur.

**Ssenari müəllifi: Sabir Məmmədov, Sabir Rüstəmxanlı**
**Rejissor:** Musa Bağırov
**Operator:** Sərdar Vəliyev




## DAŞ FİLMİ (1977)

Dağıdıcı qüvvə rəmzi olan daş müxtəlif dövrlərdə görkəmini dəyişərək(ox, güllə, raket) planetdə yaşayan adamlara dərd-bəla gətirir. Film dünya xalqlarını müharibələrin qadağan edilməsi, yer üzündə sülhün bərqərar olması uğrunda həmrəyliyə çağırır.Kinolent böyüklər üçün nəzərdə tutulmuşdur.

**Film üzərində işləyənlər**
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı,** Paşa Kərimov
**Quruluşçu rejissor:** Hafiz Əkbərov, Əsgər Məmmədov
**Quruluşçu rəssam:** Elçin Axundov
**Bəstəkar:** Xəyyam Mirzəzadə
**Operator:** Rafiq Əmirov və başqaları.




**NEFT DAŞLARININ 25 İLLİYİ FİLMİ (1975)**

Kinolent möcüzələr adası adlandırılan Neft Daşlarının yaranma tarixindən, onun bu günündən, qəhrəman neftçilərin əməyindən danışır.

**Film üzərində işləyənlər**
**Rejissor:** Musa Bağırov
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Operator:** Vladimir Konyagin
**Səs operatoru:** Şamil Kərimov

**SUVENİR FİLM (1972)**

Film-konsertdə bəstəkar Vaqif Mustafazadənin rəhbərlik etdiyi "Sevil" vokal-instrumental ansamblı, xalq artisti Əminə Dilbazinin rəhbərlik etdiyi "Çinar" rəqs ansamblı və bəstəkar Rafiq Babayevin musiqisinin müşayiəti ilə səhər lövhələrinin təsviri öz əksini tapmışdır.
**Film üzərində işləyənlər**
**Rejissor:** Cəmil Fərəcov
**Ssenari müəllifi: Sabir Rüstəmxanlı**
**Operator:** Fikrət Əsgərov
**Rəssam:** Fikrət Əhədov
**Səs operatoru:** Akif Nuriyev